# VIEW ON THE RELATIONS BETWEEN SCIENCE AND RELIGION AFTER THE RENAISSANCE

**Aladdin Malikov**[1]

**UDC:** 215:1(091):001(091)"16/19"
**LBC:** 87.3(4):86.2
**HoS:** 150
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.304-313

**Keywords:**

Science and Religion,
Science and religion in the 17th century,
Science and religion in the 18th century,
Science and religion in the 19th century,
Science and religion in the 20th century,
Materialism,
Determinism,
Darwinism

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Philosophy of Religion

## ABSTRACT

After the Renaissance, the relationship between religion and science experienced various types of developments. The purpose of examining the relationship between religion and science here is to show what kind of relationship the empirical sciences have with religion. In the 17th century, Newton created a revolution in physics. However, his orientation was directed against Aristotle's philosophy. The physicists of that period and other well-known research scholars, without exception, tried to prove the existence of God by taking the purposiveness found in nature as their basis. In the 18th century, two main philosophical currents such as materialism and determinism were formed. In both of these doctrines, belief in God was not considered acceptable. However, in the 18th century the philosophical views of D. Hume and I. Kant regarding religion revealed interesting nuances. According to D. Hume, religious beliefs are meaningless since they are not the result of sensory experience. I. Kant, however, stated that it is impossible to prove the existence of God through theoretical means. This is possible only through morality. In the 19th century, C. Darwin's theory of evolution was described by many as a war against religion. Of course, later some philosophers of religion did not consider Darwin's hypothesis to be completely contrary to religion. The 20th century can be considered the beginning of a new stage in the relationship between religion and science. In this century, the relationship between science and religion was categorized in four main forms such as conflict; independent truths; dialogue; and complementary relations.

[1] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**To cite this article:** Malikov, A. [2026]. View on the Relations Between Science and Religion after the Renaissance. *History of Science journal*, *7*(1), pp.304-313.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.304-313

***Article history:***
*Received: 14.12.2025*
*Revised: 15.01.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# RENESSANSDAN SONRA ELM VƏ DİN MÜNASİBƏTLƏRİNƏ BAXIŞ

**Ələddin Məlikov**[1]

**UOT:** 215:1(091):001(091)"16/19"
**KBT:** 87.3(4):86.2
**HoS:** 150
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.304-313

**Açar sözlər:**

Elm və Din,
XVII əsrdə elm və din,
XVIII əsrdə elm və din,
XIX əsrdə elm və din,
XX əsrdə elm və din,
Materializm,
Determinizm,
Darvinizm

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Din fəlsəfəsi

## ANNOTASİYA

İntibah dövründən sonra Din və elm münasibətləri müxtəlif növ təcrübələri yaşadı. Burada din və elm münasibətlərinin araşdırılmasından məqsəd təcrübi elmlərin dinlə hansı münasibətdə olmasını göstərməkdən ibarətdir. XVII əsrdə Nyutonun fizikada inqilab etdi. Lakin onun istiqaməti Aristotelin fəlsəfəsinə qarşı yönəlmişdi. Həmin dövrün fizikləri və digər məşhur tədqiqatçı alimləri istisnasız olaraq təbiətdə olan məqsədəuyğunluğu əsas götürərək Allahın varlığını sübut etməyə çalışırdılar. XVIII əsrdə materializm və determinism kimi iki əsas fəlsəfi cərayan formalaşdı. Bu iki təlimin hər ikisində Tanrıya inanc məqbul sayılmırdı. Lakin XVIII əsrdə dinlə bağlı D.Yum və İ.Kantın fəlsəfi görüşləri maraqlı nüansları üzə çıxardı. D.Yuma görə dini inanclar hissi təcrübənin nəticəsi olmadığından mənasızdırlar. İ.Kant isə bildirirdi ki, nəzəri yolla Tanrının varlığın sübut etmək qeyri mümkündür. Bu yalnız əxlaqla mümkündür. XIX əsrdə Ç.Darvinin təkamül nəzəriyyəsi bir çoxları tərəfindən dinə qarşı müharibə adlandırılırdı. Əlbəttə sonradan din filosoflarından bəziləri Darvinin fərziyyəsini dinə tam zidd hesab etmədilər. XX əsr din və elm münasibətlərində yeni mərhələnin başlanğıcı kimi hesab edilə bilər. Bu əsrdə elm və din münasibətləri ziddiyyət; müstəqil həqiqətlər; dialoq və təkmilləşdirici münasibətlər kimi dörd əsas formada kateqoyiyalaşdı.

[1] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Məqaləyə istinad:** Məlikov, Ə. [2026]. Renessansdan Sonra Elm və Din Münasibətlərinə Baxış. *History of Science jurnalı*, *7*(1), səh.304-313.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.304-313

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 14.12.2025*
*Yenidən baxılıb: 15.01.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ВЗГЛЯД НА ОТНОШЕНИЯ МЕЖДУ НАУКОЙ И РЕЛИГИЕЙ ПОСЛЕ РЕНЕССАНСА

**Аладдин Маликов**[1]

**УДК:** 215:1(091):001(091)“16/19”
**ББК:** 87.3(4):86.2
**HoS:** 150
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.304-313

**Ключевые слова:**

Наука и религия,
Наука и религия в XVII веке,
Наука и религия в XVIII веке,
Наука и религия в XIX веке,
Наука и религия в XX веке,
Материализм,
Детерминизм,
Дарвинизм

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Философия религии

## АННОТАЦИЯ

После эпохи Ренессанса отношения между религией и наукой пережили различные этапы развития. Цель исследования отношений между религией и наукой заключается в том, чтобы показать, в каком отношении находятся эмпирические науки с религией. В XVII веке Ньютон совершил революцию в физике. Однако его направление было направлено против философии Аристотеля. Физики того периода и другие известные исследователи-учёные без исключения пытались доказать существование Бога, исходя из целесообразности, наблюдаемой в природе. В XVIII веке сформировались два основных философских течения — материализм и детерминизм. В обоих этих учениях вера в Бога не считалась приемлемой. Однако в XVIII веке философские взгляды Д. Юма и И. Канта, связанные с религией, выявили интересные нюансы. Согласно Д. Юму, религиозные убеждения лишены смысла, поскольку они не являются результатом чувственного опыта. И. Кант, однако, утверждал, что доказать существование Бога теоретическим путём невозможно. Это возможно только через мораль. В XIX веке теория эволюции Ч. Дарвина многими рассматривалась как война против религии. Разумеется, впоследствии некоторые философы религии не считали гипотезу Дарвина полностью противоречащей религии. XX век можно считать началом нового этапа в отношениях между религией и наукой. В этом веке отношения между наукой и религией были классифицированы в четырёх основных формах: противоречие; независимые истины; диалог; и взаимодополняющие отношения.

[1] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Цитировать статью:** Маликов, А. [2026]. Взгляд на отношения между наукой и религией после Ренессанса. *Журнал History of Science*, *7*(1), с.304-313.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.304-313

***История статьи:***
*Поступила: 14.12.2025*
*Переработана: 15.01.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

 

## 1.Giriş

Din və elm münasibətlərinin araşdırılması, həm din filosofları və ilahiyyatçıların, həm də təcrübi elmlərin tədqiqatçı alimlərinin diqqətini daim cəlb etmişdir. Elm və Din münasibətləri dərin və həssas əlaqələrə malik olduğundan bu yönümdə araşdırmalar həm diqqətli həm də çox ehtiyatla aparılmalıdır. Müasir həyatın mühüm xüsusiyyətlərindən biri insanların dərin və geniş elmi məlumatlara malik olmasıdır. Qədim insan müasir insanla müqayisədə məhdud biliyə malik olmuşdur. Yəni elmin ərsəyə gəlməsi, tez bir zamanda qloballaşması və nəhayət, təcrübi elmlərin yeganə mötəbər sahə kimi qəbul edilməsi modern dünyanın əsas xüsusiyyətlərindən biri hesab olunur.

Müasir insan kainat və insana elm gözü ilə baxır. Yəni müasir dövrdə bəşər övladı öz problemlərini elmi üsullarla həll etməyə çalışır. Buna baxmayaraq son dörd (XVII, XVIII, XIX və XX) əsrdə modernləşməyə üz tutmuş insanlar arasında bir sıra suallar tam ciddiliklə gündəmdə olmuşdur. Onlardan bəziləri aşağıdakılardır:

– Yeni elmi üsullarla varlığın bütün həqiqətləri barədə söz demək olarmı?

– Yeni elm zirvə nöqtəsində olduğu halda həyatın mənəvi təfsirinə qadirdirmi?

– Dində qəbul edilən Tanrı, ölümdən sonrakı həyat, möcüzə və bu kimi anlayışlar müasir elm tərəfindən sübuta yetə bilərmi?

– Ümumiyyətlə, dini qanunların elmlə təzadlı münasibətləri həll oluna bilərmi? Yoxsa bu əlaqələrdəki toqquşmalar daimidir?

Şübhəsiz, din və elm arasındakı qarşılıqlı əlaqələr haqqında ətraflı məlumat vermək üçün bu mövzuda ayrıca bir yazıya və dəqiq araşdırmalara ehtiyac var. M.Yaqub öz əsərinin Elm və Din fəslində qeyd edir ki, “Elm və Din dərin və həssas əlaqələrə malik olduğundan bu yönümdə araşdırmalar çox ehtiyatla aparılmalıdır” [Yaqub, 2017, s.118]. Biz bu məqalədə bu mövzuda mövcud müasir elmi-fəlsəfi nəzəriyyələri geniş araşdırmaq niyyətində deyilik. Burada hörmətli oxucularda qeyd edilən dörd əsrdə bu sahədə baş verən müəyyən məsələlər haqqında ümumi təsəvvür yaratmağa çalışacağıq.

## 2.Elm və Din anlayışları

Qeyd edilən əsrlərdə Elm və Din mövzusuna daxil olmazdan öncə, burada müzakirə mövzusu olan Elm və Din anlayışlarının müstəqil izahını vermək zərurəti duyulur.

Din və Elm mövzusunda “elm” ifadəsiəsas iki mənada işlənə bilər:

**1.** İnsan tərəfindən əldə edilən bütün elmlər. Burada fəlsəfə, tarix, hüquq, etika, mistika, incəsənət, ədəbiyyat təcrübi elmlər və digər sahələr nəzərdə tutulur.

**2.** Təcrübi elmlər. Təcrübi elmlər dedikdə bəzən ancaq təbiət elmləri nəzərdə tutulur. Bəzən isə bu termin universal mənada işlənir. Yəni həm təbiət elmləri, həm də sosilogiya və psixologiya kimi elmlərə şamil edilir.

Templeton mükafatı laureatı İan Barbur (Ian Barbour 1923-2013) “Elm və Din” [Barbour, 1968] kitabının girişində qeyd edir ki, “bu kitabda Elm və Din münasibətləri dinlə təbiət elmlərinin əlaqələrinin aydınlaşmasına yönəlmişdir” [Məlikov, 2020, s.7]. Bu məqalədə də daha çox dinin təbiət elmləri ilə münasibətlərini araşdırmağa çalışmışıq. Dinin tərifinə gəldikdə isə, ümumi qeyd etsək “Din vəhy vasitəsilə Tanrı tərəfindən insanlara təqdim olunan həqiqətlər və dəyərlər toplusudur”. Bir məsələni qeyd etmək lazımdır ki, “Ağıl və din münasibətlərində ağıl üçün altı müxtəlif rol təsəvvür oluna bilər, yəni ağlın altı vəzifəsini qeyd etmək mümkündür:

**1.** Dini məsələləri anlamaq vəzifəsi;
**2.** Müqəddəs mətnlərdən dini məsələlərin kəşf olunması vəzifəsi;
**3.** Onlara nizam-intizam vermə vəzifəsi;
**4.** Dini məsələlərin təlimi vəzifəsi;
**5.** Dini məsələlərin sübut etmə vəzifəsi;
**6.** Dini inancları müdafiə etmə vəzifəsi [Məlikov, 2018, s.49].

**3.Renessans dövründən başlayaraq Elm və Din münasibətləri**

Din və elm arasındakı münasibətləri araşdırarkən, bu münasibətlərin tarixi haqqında bilgi əldə etmədən keçmək mümkün deyil. Şəksiz, bu mövzunun ilkin ərsəyə gəlişi, yeni elmin formalaşdığı yerlə bağlıdır. İntibah dövründə elmin inkişafı, filosofların yeni fəlsəfi görüşlərinin meydana gəlməsi və ilahiyyatçıların dinin müdafiəsi uğrunda (Allahın varlığına aid sübutların təqdimi kimi) səyləri həmin dövrün təzadlı şəraitindən xəbər veürir. Bir tərəfdən renessans dövründə yaşayan insan təcrübi elmlərin nailiyatlərini müşahidə edir, digər tərəfdən dini təcrübəyə əsaslanan ilahiyyatla ehtiyaclarını ödəmək istəyir.

Tarixi baxımdan renessansdan sonrakı dövr, yəni XVII-XX əsrlər Elm və Din münasibətlərinin əsas tədqiq olunduğu dövrlərdir. Bir çox fəlsəfə tarixçiləri Elm və Dinin daim ziddiyyətdə olduğunu bildirsələr də tarixi məlumatlarla tam olaraq təsdiq edilmir. Əksinə tarixə nəzər salarkən bu münasibətlərin deyilən qədər də toqquşmalar üzərində formalaşmadığı aydın olur. Bildiyimiz kimi, renessans dövründən başlayaraq, natural fəlsəfə müşahidə və təcrübə metodundan istifadə etməklə nisbi tərəqqiyə çatsa da, hələ də fəlsəfənin bir qolu hesab edilirdi.

**4.XVII əsrdə Elm və Din münasibətləri**

İsaak Nyutondan (1642-1727) sonra elm daha müntəzəm formada özünü göstərmyə başladı. Hətta Nyutonun səyləri nəticəsində elm fəlsəfədən ayrılaraq müstəqil sahə kimi özünü təsdiq edə bildi. Bu dövrdə yeni elmin ərsəyə gəlməsində əsas rol oynayan alimlərin çoxu Tanrıya inanır bəzən isə dindar ruhlu şəxslər kimi tanınırdılar. İohann Kepler (1571-1630), Qalileo Qaliley (1564-1642), Robert Boyl (1627-1691) və İ.Nyuton (1642-1691) kimi fiziklər təbiətdə olan məqsədəuyğunluğu əsas götürərək, bu yolla nəinki Allahın varlığını sübut edir, hətta bütövlükdə fizikanı ilahi varlığın mütaliəsi üçün bir vasitə hesab edir, təbiətin elmi baxımdan seyrini dini vəzifə hesab edirdilər [Brooke, p.8]. Deməli, XVII əsrdə Nyutonun elmi inqilabda aparıcı səyləri elm və dinin ziddiyyəti ilə nəticələnmədi. Daha dəqiq ifadə etsək XVII əsrin elmi inqilabı Aristotel fəlsəfəsinə qarşı yönəlmiş bir hərəkat idi. Burada Aristoteldən fərqli bir təcrübə metodundan istifadə edilir, təbiət elmlərinin tədqiq və təhlilində lazımsız və lüzumsuz fəlsəfi qanunlar inkar edilirdi [Barbur, 1968, s.44]. Nəticədə Nyutonun natural fəlsəfəsi mühüm nailiyyətlər əldə etdi. Hətta intibah dövrü ateizmi ilə mübarizədə ilahiyyatçılar Natural fəlsəfəyə istinadən dini müdafiə etməyə başladılar. XVII əsrə qədər, təbiətdəki varlıqlar ilahi iradə ilə əlaqələndirilirdi. Yəni ilahi iradə olmadan heç nə baş vermir, ilahi iradə daim mövcuddur. Allahın təbiətdə hüzuru bir an belə kəsilmir və O hər an yaradır. XVII əsrdəki Natural fəlsəfədən sonra ilahi iradəyə münasibət dəyişdi. Yəni təkallahlı dinlərdə təbliğ edilən və inanılan Allah yalnız kainatı yaratmış, sonra isə kənara çəkilmiş varlıq sayıldı. Onun istək və iradəsi və onun təsiri təkcə ilk yaranış zamanı məqbul hesab edilirdi. Natural fəlsəfənin digər qənaətlərindən biri də bu idi ki, təbiətdə cərəyan edən hadisələri həm ilahi iradə, həm də təbii səbəblərlə izah etmək olar.

İlahi varlığın sübutlarından biri kimi "teleologi sübut"un XVII əsrdə geniş yayılması Elm və Din arasında körpü rolunu oynayırdı. Qeyd etmək yerinə düşər ki, teleologi sübutda təbiətdə olan nizam-intizam və yüksək məqsədəuyğunluq əsas götürülür. Bu nizam fövqəltəbii zəka və qüdrətə malik varlığa aid edilirdi. Həmin dövrün təcrübi alimləri teleologi sübutdan istifadə edərək, özlərini allahsızlıq ittihamından sığortalayırdılar. Həmin vaxtlar bir çox ilahiyyatçılar da bu arqumentdən istifadə etməklə ilahi varlığı sübut etməyə çalışırdılar. Yalnız belə bir arqumentlə ilahi varlığın sübut edilməsi ilahiyyatı tənəzzülə uğratdı desək yanılmarıq. Çünki elm onun öhdəsinə buraxılmış bu ağır vəzifəni (Allahın varlığı sübutunda elmi nəaliyyətlərdən istifadə etməyi) davamlı olaraq yerinə yetirə bilmədi. Natural fəlsəfəyə əsasən kainat mürəkkəb bir maşıntək dəyişməz qanunların təsiri altındadır.

Nyuton və onun davamçılarının bu qanunları ilahi varlıqla əlaqələndirməsi XVIII əsrdə determinist fəlsəfənin yaranması üçün zəmin oldu.

**5.XVIII əsrdə Elm və Din münasibətləri**

XVII əsrdə Nyutonun Natural fəlsəfəsi XVIII əsrin işıqlı rasionalizminə müqəddimə oldu. Bu vaxt ağıl və elm yüksək zirvəyə çatmış, əksər hadisələri izah etməyə qadir olduğuna inanmışdı. Belə ki, XVIII əsrin əvvəllərində fransalı riyaziyyatçı və fizik Pyer Simon Laplas (1749-1827) 4000 səhifəlik "Səma mexanikası" adlı əsərini Napoleon Bonaparta (1769- 1821)] təqdim edərkən, Napoleon deyir:

"Cənab Laplas! mənə belə bir məlumat verilib ki, siz təbiət haqqında böyük bir əsər yazmış, lakin onu yaradan barədə heç bir söz deməmisiniz".

Laplas Napoleonun cavabında deyir: "Bu fərziyyəyə (Allahın varlığını təsdiq etməyə) ehtiyac duymadım" [Dampi Yer, s.214]. Yəni Laplasa görə bütün hadisələr fizika qanunları ilə izah oluna bilərdi. Laplas Nyutonun davamçılarından hesab edilsə də, fəlsəfi görüşlərində özünə məxsus yol seçmişdir. Nyutonun Natural fəlsəfəsinə görə ilahi iradə kainatda təsir qüvvəsinə malik ola bilərdi. Laplasın baxışına görə isə günəş planetində cərəyan edən hadisələr Allahın hüzurunu inkar edirdi. Dompi Yer "Elm tarixi" kitabında qeyd edir ki, XVIII əsrdə Nyutonun ideyaları düzgün şərh olunmadı. O yazır: "Nyutona görə, gözəl günəş, ulduzlar və təbiətin bu kimi gözəllikləri yalnız mehriban Allah tərəfindən yaradıla bilər. Halbuki bu əqidə XVIII əsrdə mexaniki fəlsəfənin əsas sütunlarından biri olaraq materializmin başlanğıc nöqtəsinə çevrildi" [Dampi Yer, s.208].

Məhz təcrübi elmlərin inkişafı nəticəsində tam məqbul sayılan natural fəlsəfə XVIII əsrdə "materializm" və "determinizm" adlanan iki fəlsəfi cərəyanın formalaşmasına səbəb oldu. Determinizmə görə, bütün təbiət hadisələri dəyişməz olaraq "hərəkətli maddə"nin qanunları ilə təyin olunmuşdur. Burada bütün hadisələr, hətta insanın özü və onun iradəsi səbəbiyyət asılılığında və mexaniki zərurətin təsiri altında görünür. Digər tərəfdən, həmin dövrdə meydana gələn materializm təlimlərində cansız və ruhsuz maddə kainatın yeganə obyektiv başlanğıcı kimi təsdiq edilirdi. Deməli, materiyadan savayı, həqiqi varlıq yoxdur. Hər halda təbiəti maşın timsalında təsəvvür edərək, Allahı yalnız onu quran mühəndis kimi qələmə vermək, belə bir Allahın ümumiyyətlə bəşər həyatındakı rolunu kiçiltməkdir.

XVIII əsrdə Elm və Din münasibətlərinə aid digər fəlsəfi hadisə Devid Yum (1711-1776) və İmmanuel Kantın (1724-1804) dini-fəlsəfi görüşləri idi. İngilis filosofu D.Yum yalnız hiss üzvlərinin təəsürratlarından yaranan inikası həqiqi bilik mənbəyi hesab edirdi. Yuma görə, hiss üzvlərinin təsdiqləmədiyi anlayış mənasızdır. Bu baxışa əsasən dini inanc hissi təcrübənin nəticəsi olmadığından mənasız hesab olunmalıdırlar. Bundan əlavə, o, öz empirist görüşlərinə əsalanaraq, matefizikanın əsas sütunlarından biri olan səbəb-nəticə qanununu inkar etdi. Onun fikrincə, bir hadisənin digər hadisədən sonra gəlməsi onun əvvəlki hadisənin nəticəsi sayılmasına heç bir məntiqi əsas vermir. Həmçinin D.Yum öz fəlsəfi düşüncələrini əsas götürərək, ilahi varlığın sübutlarını, xüsusilə teleoloji sübutu qəbul etmədi. İan Barbur bildirir ki, "Yum Allahı tam inkar etməmişdir. Yuma görə məntiq baxımından Alllahın varlığını nə sübut, nə də inkar etmək mümkündür" [Barbur, s.90].

XVIII əsrin ən məhşur filosofu İ.Kant çox mürəkkəb bir fəlsəfi sistem yaratmışdır. O, təbiət elmlərinin inkişafına biganə qalmayaraq, bu elmləri metafizika ilə əlaqələndirməyə calışmışdır. Kant ağlın dini inanclarla bağlı obyektiv funksiyasını rədd edirdi. O hesab edirdi ki, filosof olsaq, dindar ola bilmərik. O, "Xalis zəkanın tənqidi" kitabında yazır ki: "Rasional idrakı inkar etməliyəm ki, imana yol açım". Diqqət etsək görərik ki, Kant insanın idrak qüvvəsini iki nəzəri və praktik sahəyə ayırırdı. Kanta görə, elm (təcrübəyə əsaslanan bilik) nəzəri, din isə praktiki sahə ilə məşğuldur. Nəticə etibarıilə, o bu yolla Elm və Din arasındakı ziddiyyəti həll etməyə çalışırdı. Kant hesab edirdi ki, bizim Allahın varlığına inancımız praktiki idrakın məhsuludur. Çünki nəzəri idrak hissi təcrübə ilə məhdud

olduğuna görə Allahı dərk etmək qabiliyyətinə malik deyil. “Xalis zəkanın tənqidi” əsərində oxuyuruq: “İlahiyyat sahəsində nəzəri idrakın bütün səyləri faydasızdır. Biz ilahiyyatı etika qanunları (praktiki idrak) əsasında qursaq, artıq rasional və nəzəri ilahiyyata yer qalmayacaq” [Kant, p.636].

**6.XIX əsrdə Elm və Din münasibətləri**

XIX əsri Elm və Din arasında müharibə əsri adlandırmışlar. Bu əsrin axırlarında Con Vilyam Dreper (1811-1882) “Din və Elm arasında təzadların tarixi” (Relationship between religion and science) kitabında, Dikson Vayt (Dickson White: 1832-1918) “Elm və Din müharibəsi tarixi” (A History of the Warfare of Science with Theology in Christendom) əsərində uyğun ziddiyyətlər haqqında məlumat verməyə çalışdılar. Lakin XIX əsrdə din və elm arasında cərəyan edən təzadlar daha çox İngilis təbiətşünası Çarlz Darvinin (1809-1882) “Təkamül” nəzəriyyəsinin təsiri altında yaranmışdır. Ç.Darvin 1859 ildə yazdığı “Növlərin mənşəyi” adlı kitabında təkamül nəzəriyyəsini irəli sürdü. Öncə qeyd olundu ki, ötən əsrdə Nyutonun və Laplasın fiziki tədqiqatları nəticəsində kainat tam təbii və mexaniki təsəvvür edilirdi. İndi isə Ç.Darvin təkamül prossesini təbiətin dəyişməz qanunları çərçivəsinə salmaq istəyiridi. Darvin Latın Amerikasında bitkilər və heyvanlar üzərində, xüsusilə, növlərin xırda dəyişkənliyi haqqında bir sıra araşdırmalardan sonra canlı təbiətin seçmə vasitəsilə təkamülü haqqında qənaətlərini açıqladı. O yazır: “Heyvanlar və bitkilər üzərində apardığım uzunmüddətli müşahidələrdən sonra zehnimdə belə bir fikir formalaşdı ki, şəraitə (yaşam şəraitinə) uyğunlaşan dəyişiklik salamat qalır, uyğunlaşmayan dəyişiklik isə sıradan çıxır. Bu prosesin nəticəsi yeni növlərin yaranmasıdır” [Barbur, s.136].

1871-ci ci ildə Darvin “İnsanin mənşəyi” kitabında heyvanlar və bitkilər barədə əldə etdiyi nəticələri insana tətbiq etdi və insanın heyvandan təkamül tapdığını açıqladı. O sübut etmək istəyirdi ki, insana xas olan və onu heyvandan fərqləndirən xüsusiyyətləri təbii seçmə prosesindəki tədrici dəyişiklik kimi ilə izah etmək mümkündür amerikalı müasir din filosofu Alvin Plantinqa hesab edir ki, “Darvin heyvanlarda baş verən tam təbii və səbəbsiz dəyişiklikləri kor və naməlum təbii seçmə prosesi ilə əlaqələndirməklə həyat həqiqətinin mənəvi və ilahi izahını tam cəfəng və faydasız formaya salmışdır” [Rezaei et al., s.313]. XIX əsrdə Allahın varlığını sübut edərkən istifadə olunan teleoloji üsuldan belə bir nəticə çıxarılır ki, canlıların fiziki quruluşu və onların bədən üzvlərinin faydalı işə uyğunluğu fövqəltəbii zəkaya malik varlığı qəbul etmədən izah oluna bilməz. İngilis filosof və sxolastı Vilyam Paleyin (William Paley: 1743-1805) “Təbii İlahiyyat” (1802) (Natural Theology or Evidences of the Existence and Attributes of the Deity) əsərində bu uyğunluqların bir çox nümunəsi göstərilmişdir. Lakin burada incə bir nüans odur ki, “təkamül” nəzəriyyəsinin meydana gəlməsi həmin dövrdə belə bir təsəvvür yaratdı ki, təbii seçmə qanununu qəbul etsək, Allahın varlığını təsdiqləmədən bu uyğunluqlar izah oluna bilər.

Təkamül nəzəriyyəsi kainatın Allah tərəfindən yaranması müddəası ilə ziddiyyətdə olmaqla yanaşı, həm də bəzi reallıqlarla təzad təşkil edirdi. Nümunə üçün, dinlərdə, ən azı təkallahlı dinlərdə insan digər yaranmışların fövqündə dayanır və yeganə düşüncəli məxluqdur. Halbuki təkamül nəzəriyyəsinə görə insan da sair canlılartək təbii seçmə üsulu ilə yaranmışdır və təbiətin başqa canlılarından heç bir üstünlüyü yoxdur. Dini ifadəilə desək, əşrəfi məxluqat deyildir.

Şəksiz, təkallahlı dinlərə əsasən kainatı və insanı yaradan Allahdır. Lakin sual oluna bilər ki, həmin dinlərdə Allahın bu dünyanı müəyyən bir üsulla yaratması barədə dəqiq məlumat verilibmi?

Tövhidə əsaslanan dinlərindən azacıq anlayışı olanlar məlumatlıdırlar ki, bu dinlərdə Allahın həyat və kainatı Darvinin təklif etdiyi üsuldan fərqli bir üsulla yaratdığı nəzərə çarpmır. Nəticə etibarı ilə, Allaha və onun yaradan varlıq olduğuna inananlar bu nəzəriyyənin əsassız olduğunu sübut etməyə calışmaya bilərlər. Alvin Plantinqa “din

fəlsəfəsində tədqiqatlar" kitabında belə qeyd edir: "Allaha inanan şəxs üçün bioloji tədqiqatların nəticələri, nəticədə əhəmiyyət daşımır. Hətta təkamül nəzəriyyəsinin düzgünlüyü sübuta yetsə belə, bu onun inancına xələl gətirmir. Çünki dinə inanan şəxs Allahın varlığı müəyyən fiziki və bioloji şəraitdə yaratması ehtimalını rədd etmir".

Təkamül nəzəriyyəsi hətta Allahın kainatdakı rolunu daha aydın formada izah etdiyindən bir çox ilahiyyatçılar tərəfindən müsbət qarşılanmışdır. Onlardan bəziləri darvinizmi din və fəlsəfə üçün faydalı hesab etmişlər. Beləcə, yeni elmin (təcrübi və təbiət elmlərinin) vəzifələrindən biri də Allahın dünyanı necə xəlq etməsinin qeyri fəlsəfi üsullarını bizim üçün açıqlamısıdır [Welch, p.32].

XIX əsrin sonlarında insanların dindən uzaqlaşması haqqında tarixi faktlar mövcud olsa da, həmin dövrü tam dinsiz adlandırmaq və darvinizm nəticəsində insanlarda möcüzəyə, əbədi həyata və bu kimi dini anlayışlara qarşı inkar hissi oyanmasını önə çəkmək yanlış olardı. Çünki XIX əsrin mürəkkəb ictimai-siyasi vəziyyəti, o cümlədən xristian ruhanilərinin xalq tərəfindən bəyənilməməsi onların dini inanclardan kənarlaşmasına kifayət qədər zəmin yaradırdı. Bir sözlə, həmin dövrdə Avropa cəmiyyətindəki sekulyarlaşma prosesi insanların dindən uzaqlaşmasına xeyli təsir göstərdi. Belə bir qənaətə gəlirik ki, təkamül nəzəriyyəsinin meydana gəlməsi Elm və Din arasında nəinki ziddiyyətə səbəb olmamış, hətta bir çoxları tərəfindən dini inanclara uyğun sayılmışdır.

## 7.XX əsrdə Elm və Din münasibətləri

XX əsrin ortalarına qədər təcrübi elmlər insan zəkasının qələbəsi hesab olunurdu. Təbiət elmlərinin hər bir hadisəni izah etməyə qadir olması tam təsdiq edilirdi. Lakin XX əsrin ikinci yarısından sonra bu iddia ciddi tərəddüdlərlə üzləşmişdir. Təbiət elmləri insanın Allaha olan ehtiyacını ödəmək iqtidarında olması təsəvvürləri aradan qalxmışdır. Fizikanın bu günkü inkişafı materiyanın yeganə obyektiv varlıq olması iddiasını alt-üst etmişdir. Beləliklə, müasir dövrdə Elm və Din arasında yaranmış münasib dialoq mühiti onların sıx əlaqəsinə zəmin yaratmışdır. Müasir fiziklərdən biri belə qeyd edir: "Fiziklər elmi araşdırmalarında həqiqətləri kəşf etdikcə kainat daha əsrarəngiz görünür və bir növ dini hisslərin güclənməsinə səbəb olur. Hazırda astronomiya və fizikada müşahidə edilən tərəqqi o qədər əzəmətli və qədim dövrdə olduğundan cazibəlidir ki, nəzəri fizika ilə məşğul olan bir çox müasir alimlərdə Allaha sitayiş və inanc əhval-ruhiyyəsi yaranmışdır" [Məlikov & Məmmədov, 2021, s.250-252].

Bu əsrin sonlarına nəzərən qeyd edə bilərik ki, müasir fizikada müşahidə edilən kainat klassik fizikada göründüyündən daha çox dini inanclara şərait yaratdı. Elm və Din münasibətlərinin intibah dövründən sonrakı vəziyyəti beləcə enişli və yoxuşlu dövr keçmişdir. XX əsrdə din filosofları Elm və Din münasibətlərini təhlil edərkən dörd müxtəlif müstəvidə araşdırmışlar aparmışlar. Onlar qısaca olaraq aşağıdakılardır:

a) Elm və Din münasibətlərində ziddiyyətli həqiqətlər nəzəriyyəsi.
b) Elm və Din münasibətlərində müstəqil həqiqətlər nəzəriyyəsi.
c) Elm və Din münasibətlərində dialoq nəzəriyyəsi.
d) Elm və Din münasibətlərində təkmilləşdirici nəzəriyyə.

Qeyd etmək lazımdır ki, qeyd edilən bu yanaşmalar qərb fəlsəfə tarixində cərəyan etmişdir. XX əsrdə formalaşan bu nəzəriyyələr haqqında əlahiddə yazıya ehtiyac vardır. Çünki bu nəzəriyyələr təhlil və daha sonar tənqid edilərək təqdim edilməlidirlər. Müsəlman dünyasına gəldikdə isə məsələ fərqlənir. Elm və Din münasibətlərinin İslam nöqteyi nəzərindən izah və bölgüləri də tam ayrıca bir yazının predmetidir.

## 8.Nəticə

Modernləşmə prosesində elm də tərəqqi yolu keçdi. Təcrübi elmlər həmin tərəqqi qatarının önündə idi. Din və elm münasibətlərinin araşdırılmasından məqsəd daha çox təcrübi elmlərin dinlə hansı münasibətdə olmasını göstərməkdir. Din və elm yeni fəlsəfi

mərhələdə müxtəlif növ münasibətləri təcrübədən keçirmişdir. Aydın oldu ki, XVII əsrdə Nyutonun fizikada inqilabı, Aristotelin fəlsəfəsinə qarşı yönəlmiş idi. Həmin dövrün fiziklərini və digər məşhur tədqiqatçı alimləri istisnasız olaraq dindən üz döndərməkdə günahlandırmaq, yanlışdır. Əslində isə İohann Kepler (1571-1630), Qalileo Qaliley (1564-1642), Robert Boyl (1627-1691) və İ.Nyuton (1642-1691) kimi fiziklər təbiətdə olan məqsədəuyğunluğu əsas götürərək Allahın varlığını sübut etməyə çalışırdılar. XVIII əsrdə iki əsas fəlsəfi cərayan, yəni materializm və determinism formalaşdı. Materializmdə cansız maddə kainatın yeganə obyektiv varlığı kimi təsdiq edilirdi. Determinizmə görə isə təbiətdəki bütün hadisələr, dəyişməz şəkildə "Hərəkət edən maddə"nin qanunuları ilə təyin olunurdu. Bu iki təlimin hər ikisində Tanrıya inanc məqbul sayılmırdı. Lakin XVIII əsrdə D.Yum və İ.Kantın fəlsəfi görüşləri dinlə bağlı maraqlı məqamları üzə çıxardı. D.Yuma görə dini inanclar hissi təcrübənin nəticəsi olmadığından mənasızdırlar. İ.Kant isə bildirirdi ki, nəzəri yolla Allahın varlığın sübut etmək mümkün deyildir. Bu yalnız əxlaqla mümkündür. XIX əsrdə Ç.Darvinin təkamül nəzəriyyəsi bir çoxları tərəfindən dinə qarşı müharibə adlandırılsa da, bir sıra müasir din filosofları Darvinin fərziyyəsini dinə tam zidd hesab etmirlər. XX əsr din və elm münasibətlərində yeni mərhələnin başlanğıcı kimi hesab ediləbilər. Bu dövrdə Elm və Din münasibətləri aşağıdakı əlaqə növlərindən birinə aid edilə bilər: 1.Ziddiyyət münasibəti; 2.Elm və Din müstəqil həqiqətlər kimi; 3.Dialoq münasibəti; 4.Təkmilləşdirici münasibət.

## 9.REFERENCES


1. Malikov, A., & Mammadov, E. (2021). Four theories in the relationship between science and religion. *Journal for the Study of Religion*, 2(7), pp.211–254. https://doi.org/10.13140/RG.2.2.29819.80162 (in Azerbaijani)
2. Malikov, A. (2020). About the prominent researcher of science and religion Ian Barbour. *Elm Newspaper*, No. 22(1257), p.7. Baku: Azerbaijan National Academy of Sciences. https://doi.org/10.13140/RG.2.2.15360.25608 (in Azerbaijani)
3. Yagub, M. (2017). *Philosophy of religion*. Baku: Qanun Publishing House, 248 p. (in Azerbaijani)
4. Barbour, I. (1968). *Science and religion*. (in English)
5. Brooke, J. H. (n.d.). *Science and theology in the Enlightenment*. (in English)
6. Dampier, W. (1867–1952). *History of science*, p.214. (in English)
7. Kant, I. (n.d.). *Critique of pure reason*, p. 636. (in English)
8. Rezaei, M. M., et al. (n.d.). *Structures in new theology (Costarhai dar kalam-e jadid)*. Iran: SAMT Publishing. (in Persian)
9. Malikov, A. (2018). Analysis of the relationship between reason and faith in epistemology. *Metafizika Journal*, 1(2), pp. 23–53. https://doi.org/10.33864/MTFZK.2019.8 (in Azerbaijani)
10. Paley, W. (1802). *Natural theology, or evidences of the existence and attributes of the Deity*. (in English)
11. Welch, C. (n.d.). *Dispelling some myths about the split between theology and science*, p. 32. (in English)


## ƏDƏBİYYAT


1. Məlikov, Ə., & Məmmədov, E. (2021). Elm və din münasibətlərində dörd nəzəriyyə. *Din araşdırmaları jurnalı*, №2(7), s.211–254. https://doi.org/10.13140/RG.2.2.29819.80162
2. Məlikov, Ə. (2020). Görkəmli elm və din tədqiqatçısı İan Barbur haqqında. *Elm qəzeti*, Bakı: AMEA, №22(1257), s.7. https://doi.org/10.13140/RG.2.2.15360.25608
3. Yaqub, M. (2017). *Din fəlsəfəsi*. Bakı: Qanun nəşriyyatı, 248 s.

**4.** Barbour, I. (1968). *Elm və din* [Science & Religion].
**5.** Brooke, J. H. (ts.). *Science and theology in the Enlightenment*.
**6.** Dampier, W. (1867–1952). *Elm tarixi* [History of Science], s.214.
**7.** Kant, I. (ts.). *Critique of Pure Reason*, p.636.
**8.** Rezaei, M. M., ve başqaları. (ts.). *Costarhai dər kəlame cədid*. İran: Səmt nəşriyyatı.
**9.** Məlikov, Ə. (2018). Epistemologiyada ağıl və iman münasibətlərinin təhlili. *Metafizika Jurnalı*, *1*(2), s.23–53. https://doi.org/10.33864/MTFZK.2019.8
**10.** Paley, W. (1802). *Təbii ilahiyyat* [Natural Theology or Evidences of the Existence and Attributes of the Deity].
**11.** Welch, C. (n.d.). *Dispelling some myths about the split between theology and science*, p.32.